AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

İLKİN LEKSİK- SEMANTİK SÖZ QRUPLARININ LİNQVİSTİK TƏKAMÜLÜ

İxtisas: 5706.01– "Azərbaycan dili"
Elm sahəsi: Filologiya elmləri

İddiaçı: Gülnarə Şaməddin qızı Nəsibova

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

A V T O R E F E R A T I

Bakı – 2026

Dissertasiya Gəncə Dövlət Universitetinin Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
Mübariz İmran oğlu Yusifov

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
Məhərrəm Əvəz oğlu Məmmədov

filologiya elmləri doktoru, dosent
Fizuli Nəcməddin oğlu Mustafayev

filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
Mətanət Bəkir qızı Əmrahova

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
Nadir Baloğlan oğlu Məmmədli

Dissertasiya şurasının
elmi katibi: filologiya elmləri üzrə fəlsəfə doktoru,dosent
Sevinc Yusif qızı Məmmədova

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
İsmayıl Oruc oğlu Məmmədli

GİRİŞ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Leksik-semantik söz qrupları dilin elə bir vacib sahəsidir ki, onların mövcudluğu ilə fikrin aydın, dolğun, məntiqli, emosional və obrazlaşdırıcı ifadəsinin canlandırılması mümkün olur. Odur ki, onların müasir dildəki informativ və emosional-ekspressiv təbiətinin açılması baxımından genetik formalaşma proseslərinin tədqiqi və təhlili xüsusi bir maraq yaradır.

Leksik-semantik söz qrupları dünyanın bütün dillərində özünəməxsus şəkildə formalaşmışdır. Bu cəhətdən onlar funksionallıq baxımdan universal xarakterə malikdir. Həmin söz qruplarının universal xarakteri artıq onların tədqiqində və təhlilində təsviri üsulu arxa plana çəkir, mütəxəssislərin diqqətini məsələnin genetik problemlərinin həllinə yönəldir. Əgər təsviri üsul leksik-semantik söz qruplarının strukturu, sistemi və funksional xarakteri barədə tam bir təsəvvür yaradırsa, onların genetik xarakteri tədqiqatçı qarşısında tamamilə yeni bir mənzərə canlandırır. Bu mənzərə ondan ibarət olur ki, *birinci*, leksik-semantik söz qruplarının formalaşmasına dair linqvistik şəraitin müəyyən edilməsi problemi qarşıya çıxır. *İkincisi*, dilin söz ehtiyatının formalaşmasında linqvistik törəmələrin potensialına dair yeni fikir və mülahizələr irəli sürmək tələbi ortaya çıxır. *Üçüncüsü*, leksik-semantik söz qruplarının ümumdil, universal xarakter daşıdığı müəyyən edilir. *Dördüncüsü*, müxtəlifsistemli dillərdə leksik-semantik söz qruplarına dair, xüsusilə dilin omonimlik mərhələsi ilə bağlı müştərək elementlərin mövcudluğu və onun səbəbləri məsələsinə münasibət bildirmək tələbi yaranır.

Bütün bu məsələlərin hamısını birdən-birə həll etmək elə də asan deyil. Ancaq bunlar bir-birinə bağlı olan linqvistik hadisələrdir ki, onlar bir dildə yox, ayrı-ayrı dillərdə zaman-zaman formalaşıb leksik-semantik potensialın zənginləşməsini təmin etmişdir. Leksik-semantik söz qruplarında həm genetik, həm də tipoloji əlamətlər əks olunur. Həmçinin onların zaman-zaman təkamülü və inkişafı istiqamətlərində dilin obrazlaşdırıcılıq keyfiyyətləri də

ümumiləşmişdir. Dissertasiya mövzusunun aktuallığı da problemin genetik və tipoloji əlamətlər üzrə qarşılıqlı əlaqə mühitində araşdırılmasından ibarətdir. Bu istiqamətdə aparılan tədqiqatda leksik-semantik söz qruplarının təkamül prosesləri xüsusilə diqqəti cəlb edir. Dilin inkişafının ilkin mərhələsində leksik-semantik söz qruplarının zənginliyindən söhbət açmaq mümkün deyil, sonrakı mərhələdə isə yeni anlayışların ifadəsi üçün yeni linqvistik vahidlərin formalaşması zərurəti yaranmışdır. Bununla da, dilin şəkilçisizlik mərhələsində müşahidə olunan məhdudiyyət şəkilçilərin formalaşdığı dövrdə aradan qaldırılaraq yeni bir keyfiyyət qazanmışdır. Beləliklə, dilin genetikası və tipologiyası mühitindəki dəyişmələrin nəticəsində leksik-semantik söz qruplarının təkamül prosesi başlanmışdır.

Dissertasiyada məhz bu məsələlərin tədqiqi və təhlili diaxronik-sinxronik planda, genetik və tipoloji əlamətlərin vəhdəti fonunda aparılır. İşin aktuallığı da tədqiqat materiallarının bu iki istiqamətdə araşdırılaraq həm bir dildə onların formalaşma şəraitinin, eyni zamanda, müxtəlifsistemli dillərdə həmin elementlərin universal xarakterinin təkamül prosesinin linqvistik mənzərəsinin təcəssüm etdirilməsi ilə bağlıdır.

Leksik-semantik söz qruplarına dair aparılan tədqiqatların şəbəkəsi olduqca genişdir. Bu sahədə dünya dilçiliyində, o cümlədən türkologiyada və xüsusən Azərbaycan dilçiliyində çoxsaylı tədqiqatlar aparılmışdır. Demək olmaz ki, bu tədqiqatlar biri digərinin təkrarı və ya əlavəsidir. Leksik- semantik söz qrupları hər bir dilin söz tərkibinin zənginləşməsində mühüm rol oynayan genişprofilli sahə olduğu üçün onların tədqiqi və təhlili problemləri də bir-birindən fərqli təməl üzərində qurulur. Həmçinin leksik-semantik söz qrupları dilin leksik qatında aparıcı paradiqma yaratdığı üçün leksika və leksikologiya profilli bütün dərslik və dərs vəsaitlərində onlarla bağlı izah və məlumatlar verilir. Leksik-semantik söz qrupları bu sahəyə dair aparılan tədqiqatlarda həm ümumdil problemi, həm də hansı dilə aid bir məsələ kimi nəzərə alınır. Bu sahəyə dair bir çox tədqiqatlar aparılmış, omonimlərin quruluşu, mənşə məsələləri, formalaşması, təkamülü və onların digər həmhüdud kateqoriyalarla oxşarlığı və fərqləri barədə müasir

dilçiliyin tələbləri baxımından maraqlı fikir və mülahizələr irəli sürülmüşdür[1]. Azərbaycan dilçiliyində də leksik-semantik söz qrupları barədə bir sıra tədqiqatlar aparılmış və onların əsas məzmunu ayrı-ayrı monoqrafiya və dərsliklərdə sistemli şəkildə verilmişdir[2]. Tədqiqat işini yazan zaman V.V.Vinoqradov,

---

[1]Виноградов, В.В. Об омонимии и смежных явлениях: [Электронный ресурс]. URL: studifile.net/preview/3962920/page: 65, 18.05.2015/; Газикова, Л.Р. Омономия в ингушском языке // – Тамбов: Филологические науки, – 2019. № 1, – с. 89-91; Королькова, А.С. К вопросу выделении и определении типов омонимов: [Электронный ресурс] / А.С.Королькова, Н.Г.Наумова // Наука, Инновации (НПК-2018). Всерос. ежегод науч-практ-конф; Сборник статей Вятского гос. университета, – Киров, – 2017. URL: = russkiyonline.com/tsvetik-/metodicheskaya-podderzhka/russkaya-literatura/505/; Тузжу, К. Природа возникновения омонимов в Кыргызском и турецком языках // – Москва: Актуальные проблемы гуманитарных и естественных наук. Область наук языкознание и литературоведение, – 2017. – с. 102-105; Крылова, И.А. Функциональные омонимы в толковом словаре общего типа (на материале “словаря русского языка XXI века” под редакцией Г.Н.Скляревской) // – Санкт-Петербург: Journal of Applied Linguistic and Lexicography, – 2020. № 2, – с.165-178; Харченко, С.Ю. Орфографическая норма и грамматическая омонимия // – Волгоград: Вестник ВолГУ. Серия 2. Языкознание, – 2019. Т. 18, № 4, – с. 248-257; Качурин, Д.В. Проблема разграничения омонимии и полисемии применительно к практике составления толковых словарей: / дисс. … кандидата филологических наук / – Москва, 2014. – с. 17-54; Лесбекова, Л.Ж. Омонимия в русском языке / Л.Ж.Лесбекова, С.Е.Калдыкозова, Ж.А.Рискельдиева // Научные труды ЮКГУ им. Ауэзова, – Шымкент: ЮКГУ им. М.Ауэзова, – 2017. № 4, – с. 144-149.

[2] Cəfərov, S. Müasir Azərbaycan dili. Leksika: Dərslik / S.Cəfərov. – Bakı: Maarif, – 1970. – s. 24-31; Cəfərov, S. Müasir Azərbaycan dili. Leksika / S.Cəfərov. – Bakı: Şərq-Qərb, – 2007. – s.20-40; Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyat / Ə.Dəmirçizadə. – Bakı: Azərtədrisnəşr, – 1962. – s. 120-151; Həsənov, H.Ə. Azərbaycan dilinin omonimlər lüğəti / H.Ə.Həsənov. – Bakı: Şərq-Qərb, – 2007. –168 s; Əfəndiyeva, T. Azərbaycan dilinin leksik üslubiyyatı / T.Əfəndiyeva. – Bakı: Elm və təhsil, – 2011. – s. 72-75; Həsənov, H.Ə. Müasir Azərbaycan dilinin leksikası / H.Ə.Həsənov. – Bakı: Nurlan, – 2005. – s. 96; Xəlilov, B. Müasir Azərbaycan dilinin leksikologiyası / B.Xəlilov. – Bakı: Nurlan, – 2008. – s. 163-198. Məmmədli N.B. Müasir Azərbaycan dilində feillərin leksik sinonimliyi.–Bakı:Maarif, –1991, – S. 112.

L.R.Qazikova, A.S.Korolkova, K.Tuzju, İ.A.Krılova, S.Y. Xarçenko, L.J.Lesbekova, A.M.Şerbak, İ.B.Qolub, Ç.F. Xokket, D.E.Rozental S.Ə.Cəfərov, Ə.M. Dəmirçizadə, H.Ə.Həsənov, B.Ə.Xəlilov, T.Ə.Əfəndiyeva, M.İ.Yusifov, N.B.Məmmədli kimi bir sıra müəlliflərin əsərlərinə müraciət olunmuş və tədqiqatlarından istifadə edilmişdir.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti Azərbaycan dilinə məxsus genetik və tipoloji xarakterli leksik-semantik söz qrupları– omonim, sinonim və antonimlərdır. Tədqiqatın predmeti ilkin leksik-semantik söz qruplarının linqvistik xüsusiyyətləridir.

Tədqiqatın məqsədi və vəzifələri. Tədqiqatın məqsədi leksik-semantik söz qruplarının genetik və tipoloji təbiətini müəyyənləşdirməkdən, onların təkamül prosesinin fonunda söztörəmə və sözyaratma rolunu araşdırmaqdan, həmçinin müxtəlifsistemli dillərdəki mümkün universal əlamətlərinin meydana çıxarılmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi zəruri hesab olunur:

–Leksik-semantik söz qruplarının bir tərkib hissəsi kimi tonal və məcazi omonimlərin təkamül xüsusiyyətlərinin araşdırmaq, onların monosillabik və tonal xüsusiyyətlərini müəyyənləşdirmək;

– Omonimlərdə universallıq problemini meydana çıxarmaq;

– Omonimlərin qrammatik və derivativ funksiyalarını üzə çıxarmaq;

–Sinonimlər və onların təkamül prosesini izləmək, əsli monosillabik və düzəltmə sinonimlərin struktur-semantik xüsusiyyətlərini araşdırmaq;

–Eyniköklü, yaxınköklü və müxtəlifköklü sinonimləri təhlil etmək;

–Sinonim potensialının zənginləşməsi prosesində alınmaların rolunu müəyyənləşdirmək;

– Antonimlər və onların təkamül proseslərini izləmək;

– Əsli, müxtəlifköklü və daxili antonimlərin təkamül xüsusiyyətlərini müəyyənləşdirmək;

–Antonim potensialının alınmalar hesabına zənginləşmə

yollarını izləmək.

Tədqiqatın metodları. Tədqiqat işində mövzunun xarakterinə və tələbinə uyğun olaraq müqayisəli-tipoloji və qarşılaşdırma üsullarından istifadə edilmişdir. Müəyyən dil elementləri haqqında aydın təsəvvür yaradılması məqsədilə rekonstruksiya tələblərinə uyğun olaraq struktur təhlilə də yer verilmişdir.

Müdafiəyə çıxarılan əsas müddəalar.

Dissertasiyanın ümumi məzmunu ilə əlaqədar müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

- Leksik-semantik söz qruplarının Azərbaycan dili leksik potensialının əsasını təşkil etməsi;
- Leksik-semantik söz qruplarının tərkibinə omonimlər, sinonimlər, antonimlər və onların hər birinə aid müvafiq variantlar yaratması;
- Leksik-semantik söz qrupları özlərinin struktur tərkibinə görə genealoji və tipoloji xarakterə malik olması;
- Leksik-semantik söz qruplarının yaranmasına və mənbəyinə görə genetik, inkişafına və təkamülünə görə tipoloji xarakter daşıması
- Leksik-semantik söz qruplarının genetik tiplərinin, həmçinin universal xarakter daşıması;
- Leksik-semantik söz qruplarının hər bir dilin öz təməlində formalaşması, dil informasiyalarının inteqrasiyası mühitində isə onların keçidi ilə leksik potensialın zənginləşməsi hadisəsi baş verməsi.

Tədqiqatın elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi işin məhz genetik-tipoloji amillər fonundakı araşdırılma prinsiplərinə əsaslanır. Qeyd edildiyi kimi, indiyə qədər leksik-semantik söz qruplarına dair aparılan tədqiqatlarda bu söz qruplarının formalaşması və təkamülü məsələləri barədə müəyyən fikirlər irəli sürülmüş, onların xarakterik xüsusiyyətləri ümumiləşdirilmişdir. Bütün dərsliklərdə, o cümlədən orta ümumtəhsil məktəb dərsliklərində leksik-semantik söz qruplarının təhlilində təsviri istiqamət aparıcı istiqamət olmuşdur. Bu isə onunla bağlıdır ki, mövcud dərsliklərdə məsələyə müasirlik baxımından yanaşılır, tədqiqat işlərində daha çox sinxronik təhlilə

meyillilik üstünlük təşkil edir. Nəticədə isə bu söz qruplarının genetik və tipoloji amillər vəhdətində tədqiqi, həmçinin onların müxtəlifsistemli dillərdə universal, müştərək, homogen xüsusiyyətlərinə dair səciyyəvi əlamətləri araşdırmadan kənar qalmışdır. Bu tədqiqat işində ilk dəfə olaraq məsələyə baxış təkcə diaxron-sinxron əlamətlərə deyil, həm də genetik və tipoloji quruluşla bağlı olan təkamül prosesinə əsaslanır.

Tədqiqatda leksik- semantik söz qruplarının özünəməxsus struktur- sistem ardıcıllığa və bütövlüyə malik olduğu ortaya çıxarılmışdır. Onların struktur ardıcıllığı omonimlərdə eyni, sinonimlərdə müxtəlif, antonimlərdə isə birinin digərinə qarşı xarakterli söz modelinə görə müəyyən edildiyi göstərilmişdir.

Tədqiqat işində yaranmasına və formalaşmasına görə genetik təbiətli, təkmilləşməsinə və inkişafına görə tipoloji xarakterli olan leksik-semantik söz qruplarının təkamül prosesi izlənmişdir. Burada dilin ilkin informasiya mərhələsində monosillabik model üzrə formalaşan bu söz qruplarının universallıq xarakteri müəyyənləşdilrlmiş, onların dilin ifadə imkanlarının inkişaf etdiyi sonrakı mərhələsində formalaşma və təzahür xüsusiyyətləri üzə çıxarılmışdır.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti. Tədqiqat işi leksik-semantik söz qruplarının araşdırılmasında daha yeni fikir və mülahizələrin irəli sürülməsi baxımından mühüm nəzəri və praktik əhəmiyyət kəsb edir. Belə ki, alınan elmi nəticələrdən Azərbaycan dilinin tarixi leksikologiyasının, eləcə də dilin müasir leksik sisteminin öyrənilməsi istiqamətində aparılan araşdırılmalarda istifadə etmək olar. Eləcə də dissertant və doktorantlara, bakalavr və magistratura pilləsində təhsil alanlara xüsusi kurslar və seçmə fənlər tədris edilərkən, omonim, sinonim, antonim lüğətlərinin təkmil variantlarının hazırlanmasında, həmçinin bir çox etimoloji problemlərin dillərarası nümunələrlə qarşılıqlı rekonstruksiyası problemlərinin həlli prosesində istifadə etmək olar.

Tədqiqatın aprobasiyası və tətbiqi. Dissertasiyanın ümumi məzmununa aid müddəalar Azərbaycan Respublikası Prezidenti

yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi xarici və yerli mətbuat orqanlarında nəşr olunmuşdur.

Tədqiqat işinin yerinə yetirildiyi təşkilat. Dissertasiya Gəncə Dövlət Universitetinin Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, üç (3) fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Giriş 6 səhifə, I fəsil 39 səhifə, II fəsil 38 səhifə, III fəsil 33 səhifə, nəticə 4 səhifə, ədəbiyyat 16 səhifədən ibarətdir. Dissertasiya işi ümumilikdə 138 səhifə, 224 176 işarədən ibarətdir.

TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılacaq əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti, dissertasiyanın aprobasiyası və tətbiqi, tədqiqat işinin yerinə yetirildiyi təşkilat, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi barədə məlumat verilir.

Dissertasiyanın birinci fəsli "Omonimlərin təkamülü və ləngimə prosesləri" adlanır. Bu fəslə aid müddəalar aşağıdakı yarımfəsillərdə şərh olunur:

Birinci fəslin birinci yarımfəsli "Tonal omonimlərin formalaşması" adlanır. Azərbaycan dilində tonal omonimlərin yaranmasını ilkin omonimləşmə mərhələsinin birinci dövrünə aid etmək olar. Bu mərhələdə sözlərin qrammatikliyini və derivativliyini fərqləndirən xüsusi əlamətlər formalaşmadığından onlar ancaq tonallıqla bir-birindən fərqlənmişdir. Tonallıq ilkin omonimləri qrammatikliyə və derivativliyə görə fərqləndirmişdir. Deməli, ilkin omonimlik mərhələsində tonallıq omonimlər üçün ikiqat sinkretikliklə səciyyələnmişdir. Birincisi, ayrı-ayrı mənaların bir kök modelinə sığışdırılmasından, ikincisi isə bir kökə sığışdırılan

mənaların ad və feil qrammatikliyinə görə fərqləndirilməsindən ibarət olmuşdur.

İlkin informasiya mərhələsinin məhsulu kimi formalaşmış tonal omonimlərə məxsus sinkretizm izlərini müasir dildə işlənən aşağıdakı nümunələrdə müşahidə etmək olar: *al* (qırmızı-sifət) -*al* (almaq-feil); *aş* (yemək-isim) - *aş* (aşmaq-feil); *at* (heyvan-isim) - *at* (atmaq -feil); *az* (azlıq-qeyri-müəyyən say) - *az* (sapmaq-feil), *yaz* (fəsil-isim) -*yaz* (yazmaq-feil;

Həmçinin bu yarımfəsildə göstərilir ki, leksik-semantik söz qruplarının bir tərkib hissəsi kimi formalaşmış omonimlərin ilkin təməli tonallıqla fərqlənmə üzərində bərqərar olmuşdur. Omonimlər dildə həm sözyaratma, həm də qrammatik funksiyaların ilkin ifadə vasitəsi olduğundan eyni struktur modelə əsaslanmışdır. İlkin struktur model isə qrammatik və derivativ xarakterli olduğu üçün bir-birindən ancaq tonallıqla fərqlənmişdir. Adbildirmə aşağı tonallıqla (at, it, tut, yay, köç), feilbildirmə isə yuxarı tonallıqla (a/t, i/t, tu/t, ya/y, kö/ç) bildirilmişdir. Omonimlərin tonallıqla fərqlənməsi məsələsi A.M.Şerbak tərəfindən ətraflı şərh olunmuşdur[3]. Omonimlər eyni model daxilində ilkin qrammatik və derivativ funksiyaya malik informasiya elementi olduğu üçün onlar bəzi tədqiqatlarda hətta dilin fəsadları, defekti və ya patologiyası da adlandırılmışdır. T.Əfəndiyeva qeyd edir ki, bu fikirlər V.V.Vinoqradov, E.M.Qalkina-Fedoruk, N.M.Şanski, A.V.Kalinin, A.N.Qvozdev, A.A.Reformatski kimi görkəmli dilçilər tərəfindən irəli sürülür və təqdir edilir[4]. Bununla birlikdə ilkin omonimlərin bütün dillərdə mövcudluğu fikri bu sahədəki tədqiqatlarda birmənalı şəkildə qəbul olunur. Lakin onların homogen və universal xarakteri məsələsi, demək olar ki, diqqətdən kənarda qalır. Halbuki ilkin monosillabik elementlərin bir tərkib hissəsi kimi omonimlər

[3] Щербак, А.М. Сравнительная фонетика тюркских языков / А.М. Щербак. – Ленинград: Наука, – 1970. – с. 110-120.

[4] Əfəndiyeva, T. Azərbaycan dilinin leksik üslubiyyatı / T.Əfəndiyeva. – Bakı: Elm, – 2011. – s.71-75.

dillərarası universallığa malikdir[5]. Məsələn, dil, söz anlayışı bildirən yunanmənşəli *qlossa* sözünün kökü fleksiyalaşmış *ql* tərkibindən ibarətdir. Rus dilində həmin kök tərkibinin *qolos* (səs) sözündəki *qol* adekvatı vardır. Ərəb dilində bu adekvatın *qul* (de, söylə), fars dilində *qu*, *quy*, qədim türk dili mənbələrində *qu-*, *kü-* (səs), müasir dildə isə *küy* (səs) variantları mövcuddur[6]. Omonimlərin tonallıqla fərqlən-dirilməsi özünün ilkin ənənələrini müasir Çin dilində də saxlamaq-dadır[7].

Birinci fəslin ikinci yarımfəsli "Məcazi omonimlərin formalaşması" adlanır.

Məcazi omonimlərin yaranması artıq mücərrəd təfəkkürün formalaşması ilə bağlı olaraq tonal omonimlərdən sonrakı prosesə aid edilir. Tədqiqatlarda məcazi omonimlərin çoxmənalı sözlərdən törəməsi məsələsi göstərilir[8] ki, bu da, əslində, mücərrəd təfəkkürün məhsulu kimi nəzərə alınmalıdır. Məcazi omonimlər genetik təbiətcə monosillabik xarakter daşıyır. Sözlərin monosillabik strukturu onların genetik təbiətinin ənənəvi təcəssümü kimi təsir bağışlayır. Azərbaycan dilində həmin tipli omonimlərin aşağıdakı kimi

---

[5] Хоккет, Ч.Ф. Проблема языковых универсалий // Новое в лингвистике, – Москва: Прогресс, – вып. 5, – 1970. – с. 45-76; Успенский, Б.А. Проблема универсалий в языкознание // Новое в лингвистике, – Москва: Прогресс, – вып. 5, – 1970. – с. 5-30.

[6] Yusifov, M. Linqvistik tipologiya / M.Yusifov. – Bakı: Elm və təhsil, – 2017. – s. 90-99.

[7] Горелов, В.И. Лексикология китайского язяка / В.И.Горелов. – Москва: Просвещение, – 1984. – с. 115; Хаматова, А.А. Лексическая омонимия в современном китайском языке: / Автореферат дисс. … кандидата филологических наук/ – Москва, 1977. – с. 4-14; Хаматова, А.А. Омонимия в современном китайском языке / А.А.Хаматова. – Москва: АСТ, Восток-Запад, – 2006. – с. 15.

[8] Cəfərov, S. Müasir Azərbaycan dili. Leksika / S.Cəfərov. – Bakı: Şərq-Qərb, – 2007. – s. 20-21; Həsənov, H. Müasir Azərbaycan dilinin leksikası / H.Həsənov. – Bakı: Maarif, – 1988. – s. 45; Həsənov, H. Azərbaycan dilinin omonimlər lüğəti / H.Həsənov. – Bakı: Şərq-Qərb, – 2007. – s. 13; Розенталь, Д.Э. Современный русский язык. Разграничение омонимии и многозначности: [Электронный ресурс] / Д.Э.Розенталь, И.Б.Голуб, М.А.Теленкова. – Москва: Айрис-Пресс, – 2002: URL: gramma ru/RUS.

nümunələri ümumdil xarakteri daşıyır və intensiv işlənir: *ac* (möhtac) – *ac* (həris) – *ac* (acmış, yeməyə ehtiyacı olan), *al* (hiylə, yalan) – *al* (qırmızı); *boş* (boşluq) – *boş* (hədər) – *boş* (avara, işsiz); *göy* (səma) – *göy* (rəng) – *göy* (tərəvəz) – *göy* (xəsis); *ötmək* (oxumaq) – *ötmək* (ötüb keçmək); *bitmək* (tamamlanmaq) –*bitmək* (yetişmək). Məcazi omonimlər özlərinin genetik təməlinə uyğun olaraq tipoloji cəhətdən yeni derivativ forma qazanaraq təkamül prosesi keçirir. Belə omonimlər həm ad, həm də feil nitq hissələri daxilində öz ənənələrini inkişaf etdirir. Onların derivativliyi monosillabik formadan disillabik formaya keçidində müşahidə edilir. Bunların ad nitq hissələrinə aid olanlarına dair *acı* (təəssüf) – *acı* (dad) – *acı* (məşəqqətli); *bölük* (dəstə) – *bölük* (bölünmüş); *dolu* (bütöv, tam) – *dolu* (yağıntı), feil nitq hissəsinə aid isə *bitirmək* (tamamlanmaq) – *bitirmək* (yetişdirmək); *qabarmaq* (şişib qalxmaq) – *qabarmaq* (hirslənmək), *sarımaq* (dolamaq) – *sarımaq* (sataşmaq) kimi nümunələr misal göstərilə bilər.

Bu yarımfəsil bir neçə bölməyə ayrılır: "**Ad nitq hissələrinə məxsus omonimlər**". Belə omonimlər iki qrupa ayrılır: a*)ad nitq hissələrinə məxsus monosillabik omonimlər.* Azərbaycan dilində ad nitq hissələrinə məxsus aşağıdakı kimi monosillabik omonimlərdə daxili məna əlaqələrinin mövcudluğu müşahidə edilir: *Ac* (aclığı olan) – *ac* (möhtac) – *ac* (həris); *al* (hiylə) –*al* (qırmızı); *bel* (arxa, kürək) – *bel* (iş aləti); *bic* (bicdoğulan) – *bic* (ağacın ətrafından baş qaldıran şivlər) – *bic* (hiyləgər); *qaş (gözüstü əlamət) –qaş (üfüq*); *şiş* (sivri) – *şiş (ucu sivriləşmiş yara); şiş (alət);* Monosillabik quruluşlu ad nitq hissələrinə dair verilən bu nümunələr motivləşmə prosesi üzrə mənaca müstəqilləşdiyindən onların bəzilərində daxili əlaqə zahirən aydın təcəssüm olunsa da, bəzilərində əlaqələr müəyyən məhdudlaşmaya məruz qalmışdır. Daxili məna əlaqəsini saxlayan omonimlərdə həmin əlaqələr müəyyən əlamətlər üzrə özünü büruzə verir. Bunlar psixoloji-mənəvi hal-əhvala, bənzərliyə, keyfiyyətə, zahiri formaya görə, rəngə və digər bənzəyişə görə təcəssüm olunan əlaqələrdən ibarətdir. Məsələn, *ac* (aclığı olan) – *ac* (möhtac) – *ac* (həris) omonimləri arasında psixoloji-mənəvi hal-əhval keyfiyyəti, *qaş* (gözüstü əlamət) – *qaş* (üfüq) – *şiş* (sivri) – *şiş* (alət) kimi

omonimlərdə oxşayış bənzərlik əlamətləri müşahidə olunur. Bu keyfiyyət və əlamətlərdə isə göstərilən omonimlərdə daxili anlayış uyğunluğu özünü göstərir. *b) ad nitq hissələrinə məxsus derivativ tipli omonimlər;* Ad nitq hissələrinə məxsus derivativ tipli omonimlərdə də daxili məna əlaqələri özünü büruzə verir. Derivativ omonimlərdə sözdüzəldici şəkilçilərin mövcudluğu daxili məna əlaqələrinin mühafizə olunmasında xüsusi rol oynayır. Bu mənalarda biri aparıcı, dominant xarakter daşıyır, digəri isə məcazlaşmış mənanı bildirir. Bunlara dair aşağıdakı nümunələri misal göstərmək olar: *acı* (dad) – *acı* (məşəqqət) – *acı* (təəssüf); *baxış* (gözdən keçirmək) – *baxış* (nəzər, fikir); *bişmiş* (hazırlanmış) – *bişmiş* (bişirilmiş yemək) – *bişmiş* (bərkimiş, sınaqdan çıxmış); *boylu* (döndür, uca) – *boylu* (hamilə); *bölük* (dəstə) – *bölük* (bölünmüş); *çalası* (qatıq mayası) – *çalası* (aravuran) və s.

“Feil nitq hissələrinə məxsus omonimlər”. Feil nitq hissəsinə məxsus omonimlərin özlərini iki qrupa ayırmaq olar: a*) feil nitq hissəsinə məxsus monosillabik tipli omonimlər; b) feil nitq hissəsinə məxsus derivativ tipli omonimlər.*

Feil nitq hissəsinə məxsus monosillabik tipli omonimlər. Ad nitq hissələrinə məxsus monosillabik omonimlərdə olduğu kimi, feil nitq hissəsinə aid monosillablarda da motivləşmə aparıcı yer tutur. Omonim cərgələrdən biri dominant mənaya malik olur, digəri isə məcazlaşmış xarakter daşıyır. Omonimlərin bu qisminə dair aşağıdakı nümunələri göstərmək olar: *Bit*(mək) (tamamlanmaq) – *bit*(mək) (yetişmək); *soy*(maq) (qabığını çıxarmaq) –*soy*(maq) (talamaq); *süz*(mək) (uçmaq) -*süz*(mək) (axıtmaq); *üzmək* (qoparmaq) – *üzmək* (çimmək); *uç*(maq) (havada uçmaq) –*uçmaq* (yıxılmaq, dağılmaq). *b)Feil nitq hissəsinə məxsus derivativ tipli omonimlər.* Omonimlərin bu qismində də mənalardan biri məcazlaşmış olur. Ancaq aralarındakı məna əlaqələri müəyyən əlamətlər əsasında saxlanılır. Bunlara dair aşağıdakı nümunələri göstərmək olar: *bitirmək* - 1.sona çatdırmaq; 2.yetişdirmək, *bişirmək* - 1.hazırlamaq; 2. aldatmaq, *bulandırmaq* - 1. çirkləndirmək; 2. ara qatmaq, *qabarmaq*- 1. şişib qalxmaq; 2. hirslənmək; *sarımaq* - 1.dolamaq, 2.sataşmaq; *uçurmaq* - 1. göyə buraxmaq; 2. yıxıb

dağıtmaq və s.

Birinci fəslin üçüncü yarımfəsli "Omonim variantlar" adlanır. Bu yarımfəsil isə özlüyündə üç yarımfəslə bölünür: **"Ad-ad korrelyasiyası üzrə formalaşan omonimlər"***(artıq-* çox, yeməyin qırıntısı, *al-* hiylə, qırmızı rəng**),"Feil-feil korrelyasiyası üzrə formalaşan omonimlər"** *(üzmək* - qoparmaq, çimmək**),"Ad- feil korrelyasiyası üzrə formalaşan omonimlər"(***böy(ür)-*ətraf, qışqır (maq).

Omonim variantlar, əslində, eyniköklü olmayan omonimlərdən ibarətdir. Monosillabizm mərhələsində omonimlər o qədər sürətlə inkişaf etmişdir ki, informasiyalar əksərən həmin tipli dil vahidləri ilə ifadə olunmuşdur. Bu mərhələdə eyniköklü omonimlərin baş verməsi həmin dil vasitələrinin potensialının artmasına ciddi təsir göstərmişdir. Bu təsirin nəticəsində formalaşmış kök sözlər bir çox digər sözlərin bünövrəsini təşkil etmişdir. Bir-biri ilə məna əlaqəsi olmayan omonimlər, əslində, bu tipli omonim vahidlərdən ibarətdir. Omonimlərin tərkibində sinkretiklik cəhətdən əsas yer tutan dil vahidləri də məhz omonim variantlar kimi şərti adla adlandırılan müxtəlifköklü monosillablardan ibarət olmuşdur. Bu tipli omonimlər bir kökdən törəmədiyi üçün onlar tonal və məcazlaşmış omonimlərlə eyniləşdirilmir. Belə omonimlərin əsas xarakter cəhəti müxtəlifköklülük olduğu üçün onlarda korrelyativlik səciyyəvi əlamət sayılmır, hərçənd həmin tipli omonimlərdə həm eyni nitq hissəsinə məxsusluq və həm də korrelyativlik əlaməti müşahidə edilir. Məsələn, *qır* (sındırmaq) – *qır* (qətran) sözləri tam sinkretikdir və onların arasında nə ilkin, nə də məcazi mənalılıq mövcuddur.

Dissertasiyanın ikinci fəsli "Sinonimlərin təkamül prosesi" adlanır. Bu fəslin məzmunu aşağıdakı yarımfəsillərdə izah olunur:

İkinci fəslin birinci yarımfəsli "Əsli monosillabik sinonimlər" adlanır. Bu yarımfəslə aşağıdakılar aiddir: "Kəsmək, qırmaq anlayışı bildirən sinonimlər", "Yanmaq, istilik anlayışı bildirən sinonimlər", "Səs, küy anlayışı bildirən sinonimlər".

Bu yarımfəsildə göstərilir ki, omonimlər dilin söz ehtiyatının məhdud olduğu dövrdə formalaşmışdırsa, sinonimlər artıq dilin ifadə imkanlarının zənginləşməsi dövründə baş vermişdir. Bu da oxşar

əşya və hadisələrin bir yox bir neçə müxtəlifquruluşlu sözlərin formalaşmasına zəmin yaratmışdır. Sinonimlərin formalaşması prosesi insanların yaradıcı təfəkküründə ətraf aləm hadisələrinə aid imitasiyaların söz emalına çevrilməsi sayəsində baş vermişdir. Sinonimlərin törəməsində nisbi anlayışların qavranılması əsas amil olduğunda hər hansı işin və ya hərəkətin müxtəlif çalarlarını bildirən sözlər meydana gəlmişdir. Bu da dilin leksik potensialının zənginləşməsinə, semantik mühitinin genişlənməsinə səbəb olmuşdur. Beləliklə, dildə oxşar anlayışları ifadə edən zəngin model formalaşmağa başlamışdır. Sinonimlərin formalaşmasına dair tədqiqat əsərlərində onların yaranmasının müxtəlif üsulları barədə bəhs edilir[9]. Sinonimlərin formalaşmasının əsas səbəblərindən birinin üslubi ehtiyacla bağlı olduğu göstərilsə də, burada üslubi ehtiyacı əsaslandırıcı saymaq bir çox hallarda doğru sayılmaz. Çünki sinonimlərin baş verməsinin təməlində ətraf aləm hadisələrinə dair nisbi anlayışların qavranılması dayanır. Monosillabik strukturda yaranmış ilkin və ya əsli sinonimlərin nisbi anlayışları bildirməsini aşağıdakı nümunələrdən görmək olur: *kəsmək, qırmaq anlayışı: kəs, böl, biç, dəl, deş, eş, yar, cır, qır, yon; yanmaq, istilik anlayışı ilə bağlı olanlar: yan* (yanmaq), *köz* (közərmək), *qız* (qızdırmaq), *göy* (göyrəmək), *al* (alışmaq), *yax* (yaxılmaq), *qal* (qalamaq); *səs, küy*

[9] Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı / Ə.Dəmirçizadə. – Bakı: Azərtədrisnəşr, – 1962. – s. 120-121; Əfəndiyeva, T. Azərbaycan dilinin leksik üslubiyyatı / T.Əfəndiyeva. – Bakı: Elm və təhsil, – 2011. – s. 41; Həsənov, H. Müasir Azərbaycan dilinin leksikası / H.Həsənov. – Gəncə Poliqrafiya ASC, – 2006. – s. 11; Xəlilov, B. Müasir Azərbaycan dilinin leksikologiyası / B.Xəlilov. – Bakı: Nurlan, – 2008. – s.177-187; Cəfərov, S. Müasir Azərbaycan dili / S.Cəfərov. – Bakı: Maarif, – 1970. – s.29-37; Həsənov, H. Müasir Azərbaycan dilinin leksikası / H.Həsənov. – Bakı: Maarif, – – s.64; Seyidəliyev, N. Azərbaycan dilinin sinonimlər lüğəti / N.Seyidəliyev. – Bakı: Şərq-Qərb, – 2007. – s. 5; Крысин, Л.П. Современный русский язык / Л.П.Крысин. – Москва: Академия, – 2007. – с. 76; Брагина, А.А. Функции синонимов в современном русском языке: / Автореф. дис. канд.филол.наук/ – Москва, 1979. – с. 3; Головин, Б.Н. Очерки по стилистике русского языка / Б.Н.Головин. – Москва: Высшая школа, – 1983. – с. 118.

anlayışı ilə bağlı olanlar: *səs, küy, qış*(qır); *dil*(lən), *dan*(ış), *söy*(lən), *din* (dinmək) və s.

Monosillabik sinonimlər də başqa dillərlə universal xüsusiyyətlərə malikdir. Məsələn, *kəs*-kökünün rus dilində *кос*- (косить-kəsmək), *кос* (косарь-biçinçi), fransız dilində *kas* (kastet-qırmaq, sındırmaq), ərəb dilində *qis*- (qismət-kəsik), *təqsim* (bölünən), *del* – kökünün bünövrəsində formalaşan və *kəsmək, bölmək, deşmək* anlayışlarını özündə ümumiləşdirən rus dilində *делить* (bölmək, ayırmaq), *передел* (yenidən bölmə), *раздел* (bölmə), ərəb dilində *dəl*- dəllak, ingilis dilində *del*-dən *delimit* (sərhəd bölgüsü), *delta* (qurunun su ilə bölünmüş hissəsi), *delve* (qazılmaq, deşilmək) kimi adekvatları vardır.

Yanmaq anlayışı ilə bağlı olan monosillabik sinonimlərin də bir qismi məna müstəqilliyini saxladığı halda bəziləri məna müstəqilliyini mühafizə edə bilmir. Məna müstəqilliyini saxlayanlara dair aşağıdakı nümunələri göstərmək olar: *Al*- kökünün yanmaq anlayışını alovlanmaq derivatında ifadə olunan alışıb yanmaq çalarlığında bildirir. *Yax*- kökü yanmağın məcazlaşmış anlayışını ifadə edir və *yanıb-yaxılmaq* ifadəsində yanıb qurumaq çalarlığını bildirir. *Tüt*- kökü yanmağın tüstülənmək mənasını bildirir. Bu məna *tütün* sözündə, həmçinin, *tütünü tütmək* ifadəsində əks olunur.

İkinci fəslin ikinci yarımfəsli "Düzəltmə sinonimlər" adlanır.Bu yarımfəslə "Eyniköklü düzəltmə sinonimlər","Yaxınköklü sinonimlər","Müxtəlifköklü sinonimlər"daxildir.Düzəltmə sinonimlər genetik sinonimlərin tipoloji prinsip təməli üzərindəki təkamülü əsasında formalaşmışdır. Düzəltmə sinonimlərin formalaşması dilin leksik-semantik potensialının zənginliyinə uyğun olaraq baş verir. Hansı dildə nisbi anlayışların potensialı zəngindirsə, həmin dildə də düzəltmə sinonimlərin artımı daha güclü və daha canlı olur. Azərbaycan dilində düzəltmə sinonimlərin yaranmasının üç əsas istiqaməti mövcuddur. Bunlar eyniköklü, yaxınköklü və müxtəlif-köklü sinonimlərdən ibarətdir. *Eyniköklü sinonimlərdə* kök eyniyyəti olsa da, onlara ayrı-ayrı şəkilçilər qoşulur, ona görə də eyni kökdən yaxınmənalı sinonimlər düzəlir: *gör: görkəm-görünüş, yağ-yağmur-yağış, yan-yanıl-yanlış, büt-bütün-bütöv*.

Yaxınköklü sinonimlər mənaca yaxın olan sinonimlərin təməlində düzəlir. Yaxınköklü sinonimlər genetik təbiətinə görə məna etibarilə uyğun olan, monosillabik bünövrə üzərində formalaşır: *cərgə-sıra: cərgəli-sıralı; səs-küy: səsli-küylü; külək-yel: küləkli-yelli; yağ-piy: yağlı-piyli; böyür-bəyir: böyürtü-bəyirti, çığ-bağ: çığır-bağır; par-iş: parıltı-işıltı; yırt-sök: yırtıq-sökük* və s.

Müxtəlifköklü sinonimlər eyni kökdən olmayan, lakin eyni şəkilçilərin iştirakı ilə düzələn sinonimlərdən ibarət olur: *biçim-yaraşıq: biçimli-yaraşıqlı; dağıntı-tökün tü: dağıntılı-tökün tülü; ağız-kəsər: ağızlı-kəsərli; şələ-yük: şələli-yüklü; ay-don: aylıq-donluq; düzən-çöl: düzənlik-çöllük* və s.

İkinci fəslin üçüncü yarımfəsli "Sinonim potensialının alınmalar hesabına zənginləşməsi" adlanır. Omonimlər kimi sinonimlər də bütün dillərə məxsus leksik-semantik vahidlər sırasına daxildir. Müəyyən hallarda insan həyatına, ictimai-məişətə və insanı əhatə edən ətraf mühitə aid nisbilik anlayışını bir dilin özündə yaranan sinonimlərlə bildirmək mümkün olmur. Odur ki, müəyyən çalarlıqların ifadəsində dillərarası inteqrasiyanın təsiri ilə alınan sinonimlərdən də istifadə edilir. Belə alınmalar sözalan dildə icbari xarakter daşımır, alınan sözün hesabına təfəkkürdə sinonimliyi təcəssüm etdirən nisbilik anlayışlarının oyanışına təsir göstərir. Bununla da nisbi anlayışların təkamülü sözlərdə olduğu kimi, insan təffəküründə onun qavrayışı ilə də baş verir. Azərbaycan dilində bu tipli sinonimlər həm kalkalaşma yolu ilə, həm də digər alınmalarla ifadə olunur. Kalkalaşma yolu ilə düzələn sinonimlərdə ancaq başqa dilə aid formal struktur tərkib köçürülür. Sözün mənası isə Azərbaycan dilinə uyğunlaşdırılmış qəlib daxilində bu dilin özünə məxsus semantik potensial hesabına ifadə olunur. Məsələn, rus dilindəki *водоем* və *водохранилище* sözlərinin qarşılığı kimi *sututar* kalkası işlənir ki, bu da Azərbaycan dilindəki *subasar* sözü ilə sinonimlik təşkil edir. Yaxud rus dilindəki *самосвал* sözü Azərbaycan dilinə *özüboşaldan* və *yükünüboşaldan*, *самообслуживание* sözü *özünəqulluq* və *özünəxidmət* kimi qarşılıqlarla ifadə edilir. Azərbaycan dilində alınma sinonim cərgəsi ərəb, fars və Avropa dillərinin nümunələri hesabına da zənginləşir: ərəb dilinə

məxsus olanlar: *dünya-aləm-kainat-cahan; aman-macal-möhlət-imkan; amil-səbəb-vasitə*; ərəb və fars dilinə məxsus olanlar: *sadə* (ə) - *asan* (f), *bəsit* (ə); *sərsəri* (ə) - *avara* (f) - *dərbədər* (f); *abidə* (ə) - *heykəl* (ə) - *nişangah* (f); Azərbaycan və ərəb dillərinə məxsus olanlar: *uca* (A), *hündür* (A), *yüksək* (A), *ali* (ə); *kömək* (A); *imdad* (ə); *anlaq* (A)- *idrak* (ə) - *ağıl* (ə) - *zəka* (ə) -*fərasət* (ə); sinonim tərkibdə Avropa dillərinə məxsus sözlərin iştirakı: *nüfuz* (ə) - *etibar* (ə) - *avtoritet* (alm.)- *prestij* (fr.) - *reputasiya* (lat-fr.), *şan* (A) - *şöhrət* (ə); *işlək* (A) - *aktiv* (lat.), *fəal* (ə) - *aktual* (lat.) və s. hər hansı dildə milli sinonimlərin zənginliyi o dilin nüfuzu, alınmaların iştirakı isə leksik-semantik potensialın zənginləşməsi deməkdir.

Dissertasiyanın üçüncü fəsli "Antonimlərin təkamül prosesləri" adlanır. Bu fəslə aid olan müddəalar aşağıdakı yarımfəsillərdə izah edilir:

Üçüncü fəslin birinci yarımfəsli "Əsli antonimlər" adlanır. Bu yarımfəslə "Əsli antonimlərin formalaşma prinsipləri", "Eyniköklü genetik antonimlər", "Müxtəlifköklü genetik antonimlər" aiddir. Əsli antonimlər omonim və sinonimlər kimi genetik təbiətli monosillabik vahidlərdən ibarətdir. Əsli antonimlərin formalaşması təbiətdəki və insanı əhatə edən mühitdəki əksliklərin və ziddiyyətlərin insan təfəkküründə qavranılıb dərk olunması ilə bağlıdır. Omonim və sinonimlərdə olduğu kimi, antonim paradiqması da əkslik və ziddiyyət bildirən sözlərin qarşılıqlı vəhdətində formalaşır. Antonimlərin müəyyən edilməsi ilə bağlı fikir və mülahizələrdə də onların qarşılaşdırılması prinsipi xüsusilə nəzərə alınır[10]. Azərbaycan dilindəki əsli antonimlərin genetik ənənəsi *az-çox, al-ver, get-gəl, düş-çıx, en-qalx; tez-gec, ol-qal, üz-düz* kimi monosillabik elementlərdə müşahidə olunur. Omonim və

[10] Cəfərov, S. Müasir Azərbaycan dili / S.Cəfərov. – Bakı: Maarif, – 1970. – s. 38; Həsənov, H. Azərbaycan dilinin antonimlər lüğəti / H.Həsənov. – Bakı: Şərq-Qərb, – 2007. – s. 5; Xəlilov, B. Müasir Azərbaycan dilinin leksikologiyası / B.Xəlilov. – Bakı: Nurlan, – 2008. – s.187-198; Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı / Ə.Dəmirçizadə. – Bakı: Azərtədrisnəşr, – 1962. – s. 134-135; Əfəndiyeva, T. Azərbaycan dilinin üslubiyyatı / T.Əfəndiyeva. – Bakı: Elm və təhsil, – 2011. – s. 85-86.

sinonimlərdə olduğu kimi, monosillabik antonimlərdə də müxtəlifsistemli dillərə məxsus universallıq vardır. Çox zaman monosillabik tipoloji dəyişmələrdə ilkin strukturundan uzaqlaşdığı üçün onları bərpa etmək çətinləşir. Lakin itən izlərin bərpası ilə universal elementləri təyin etmək mümkün olur. Məsələn, Azərbaycan dilindəki *bol* (bütöv) monosillabı ilə *böl* (yarı, yarımçıq) sözlərində antonimlik vardır. Oxşar antonimlik rus dilindəki *бо́льшой* (böyük, bütöv) sözünün *bol* tərkibində və *молоть* (üyütmək, xırdalat) sözünün *mol*, *мельчать* (xırdalaşmaq) sözündəki *mol* monosillabik tərkibində müşahidə edilir. Həmçinin ingilis dilindəki *multi-* (çox) sözünün *mul-* tərkibini çoxluq mənası üzrə *bol* adekvatında, xırdalamaq mənasındakı *mill* sözünü isə *böl* (Azərb.), *melğ* (rus) tərkibləri ilə müqayisə etmək olar.

Əsli antonimlər eyniköklü və müxtəlifköklü genetik monosillablardan ibarət olur. Eyniköklü genetik antonimlər monosillablar şəklində formalaşmış tərkiblərdən ibarətdir. Eyniköklü genetik antonimlərin müəyyən qismi ilkin omonimlik mərhələsinin məhsulu kimi formalaşmışdır. Belə antonimlər eyni kök modeli üzərində əkslik anlayışı bildirməklə səciyyələnmişdir. Antonimlərin bu qisminin kök modelləri şəkilçililik mərhələsində müvafiq derivatlarla qaynayıb-qarışdığından onları bərpa etmək çətinləşmişdir. Bununla yanaşı, eyni kök daxilindən omonim kimi formalaşan bəzi antonimlərin izlərini müəyyən etmək mümkün olur. Məsələn, *al-* kökü *alçaq* sözünün tərkibində aşağıdakı mənaları bildirir. *Al-* kökündən, həmçinin *alçaqlıq* mənası üzrə *alçalmaq, alçaltmaq, alçaldılmaq, alçaqdan* kimi sözlər də düzəlmişdir. *Al-* kökü hətta omonim variantlı dil vahidi kimi müstəqil olaraq *aşağı*, *aşağılıq, aşağı* hissə mənasında qədim türk lüğətində də qeydə alınmışdır. Monosillabizm mərhələsində eyni kökə prefiks xarakterli müvafiq elementlərin əlavəsi ilə digər antonim mənalı sözlərin əmələ gəlməsinə dair faktlar da aşkar edilmişdir. Məsələn, *iz-* kökündən aşkar olanı tapmaq, müşahidə etmək, axartmaq arxasınca düşmək mənasını bildirən *izləmək* sözü düzəlmişdir. *İz-* kökünün əvvəlinə *g* samiti artırıldıqda isə *giz-* kökü formalaşır ki, bu kökdən də aşkarı örtmək mənasında *gizli, gizlin, gizlətmək, gizlənmək* kimi derivatlar

formalaşır.

Eyniköklü antonimlərdə bir kök modal omonimlərdəki kimi formalaşaraq əksmənalılıq bildirir. Məsələn, *al-* kökü üzrə formalaşan *alp* sözündə böyüklük, *alçaq* sözündə *kiçiklik, aşağılıq*; *din-* kökü üzrə düzələn *dinmək* sözü *danışmaq*, *dinc* sözü isə *sakit olmaq* kimi əksmənalılıq bildirir.

Müxtəlifköklü genetik antonimlər də, əslində, monosillabizm mərhələsinin məhsulu kimi formalaşmışdır. *İr-ger* monosillablarında tərəflərin heç biri məna müstəqilliyini mühafizə edə bilmir. Ancaq *ir-* kökü əsasında düzələn *irəli*, *ger-* kökü əsasında formalaşmış *geri* sözlərində onların antonim qarşılaşmalı ilkin anlayışları mühafizə olunur. Eyni qayda üzrə *ir-xır* köklərinin geneik əkslik anlayışlarını bərpa etmək olur. Məsələn, omonim xarakterli *ir*-kökünə *–i* elementi qoşulduqda *iri* sözü alınır ki, buradan da həmin kökün ilkin mənası aydınlaşır. *İri* sözünün özündən isə *irilik, iriləşmə, irilənmə* kimi sözlər yaranır. *Xır-* kökünə isə *–da* şəkilçisi artırıldıqda xırda sözü alınır. Beləliklə, həmin köklərin bazasında *iri-xırda, irili-xırdalı* kimi antonim derivatları formalaşır. Əlbəttə, inkar etmək olmaz ki, qədim yazılı abidələrin dilində işlədilən *irəli* sözünün *ilqərü//ilgərü* variantı mövcud olmamuşdur. Məsələn sözün *ilqərü//ilgərü* variantının işlədilməsin. Göytürk dilinə məxsus "Kül Tiqin" abidəsinin elə Cənub tərəfinin birinci və ikinci sətirlərində rast gəlmək olur. Tədqiqat işində *irəli* sözünün *ir-* kökü barədə bəhs ediləndə də ilkin variant inkar olunmur. Bu kök dilin inkişafı dövründə nitqə məxsus asanlaşma prinsipinə görə müəyyən dəyişmələrə məruz qalır. Nəzərə almaq lazımdır ki, işdə istifadə edilən *xırda* sözü imitativ yolla formalaşmışdır. İmitasiya əsasında müxtəlifsistemli dillərdə oxşar strukturlu sözlərin yaranması mümkün olan hadisədir. Odur ki, Azərbaycan dilindəki, *xırda* sözü ilə fars dilindəki *xord* sözü arasında struktur və semantik müştərəklik mümkün hadisə kimi sayıla bilər. Məsələn, rus dilində *yanmaq* mənası verən *гopeмъ* sözünün *qor-* kökü ilə Azərbaycan dilindəki *yanmaq,od* mənası bildirən *qor* kökü arasında da müştərəklik mövcuddir.

Müxtəlifköklü antonimlər ayrı-ayrı köklər əsasında zidd mənalı sözlər düzəlməsi ilə səciyyələnir: *dün* (gecə) – *gün* (gündüz), *er* (ertə) – *gec, en* (eniş) – *yox* (yoxuş) və s.

Üçüncü fəslin ikinci yarımfəsli "Düzəltmə antonimlər" adlanır. Bu yarımfəsil "Eyniköklü düzəltmə antonimlər" və "Müxtəlifköklü düzəltmə antonimlər" və "Daxili antonimlər"ə ayrılır. Düzəltmə antonimlər eyniköklü və müxtəlifköklü sözlərin əsasında formalaşaraq təkmilləşmiş növlərdən ibarətdir. Eyniköklü antonimlərin düzəlməsində əksmənalılıq funksiyası daşıyan şəkilçilər iştirak edir: *yağ: yağlı-yağsız; çiçək: çiçəkli-çiçəksiz , qonaq: qonaqlı- qonaqsız, məhsul: məhsullu- məhsulsuz, kömək: köməkli-köməksiz.* Müxtəlifköklü düzəltmə antonimlərin özündə əks və zidd mənalılıq ifadə olunur. Onların düzəltmə variantlarına isə eyni şəkilçilər qoşulur: *uzunluq-qısalıq, dağlı- aranlı, dərəli-təpəli, uşaqlı-böyüklü, qarılı-qocalı, quzeyli-güneyli, erkəkli-dişili, irəli-gerili, yazdırmaq-pozdurmaq.*

Daxili antonimlər əkslik və ziddiyyət bildirən sözlərə məxsus anlayışların təkamülü nəticəsi kimi eyni söz daxilində iki əks qütbün yerləşdirilməsi sayəsində meydana çıxmışdır. Dilçilikdə enantiosemiya termini ilə adlandırılan[11] belə antonimlərin semantik şaxələnməsi barədə müəyyən məlumatlar verilməsinə rast gəlmək olur. Ancaq belə antonimlərin törəmə səbəbləri barədə, demək olar ki, konkret bir fikir yoxdur. Hesab etmək olar ki, daxili antonimlik

---

[11] Новиков, Л.А. Антонимия в русском языке (Семантический анализ противоположности в лексике) / Л.А.Новиков. – Москва: Изд. МГУ, – 1973. – с. 87-89; Суперанская, А.В. Общая теория имени собственного / А.В.Суперанская. – Москва: Наука, – 1973. – с.304; Уфимцева, А.А. Слово в лексико-семантической системе языка / А.А.Уфимцева. – Москва: Наука, – 1968. – с.191-192; Шмелев, В.Д. Проблемы семантического анализа лексики (На материале русского языка) / В.Д.Шмелев. – Москва: Наука, – 1973. – с. 131; Будагова, З.И. О глагольной энантиосемии в азербайджанском языке // – Баку: Изд. АН Азерб. ССР, сер. лит., языка и искусств, – 1977. № 4, – с. 56-57; Алекперов, А.К. Лексическая семантика простых глаголов в современном азербайджанском языке / А.К.Алекперов. – Баку: Элм, – 1983. – с. 104-105; Hacıyeva, Ə. Binar səciyyəli frazeoloji enantiosemiya // – Bakı: Filologiya məsələləri, – 2017. № 19, – s. 3-10.

özünün sinkretik xüsusiyyətləri ilə əlaqədar ilkin omonimlərin yaranması dövrünə təsadüf edir. O dövrə ki, həmin mərhələdə əksliklər insan təfəkküründə tam diferensiallaşma posesi keçirməmişdir. Ona görə də əksilikləri bildirmək üçün ayrı-ayrı sözlər yaranmamış, onlar bir söz modelinin vəhdətində yaranmışdır. Əksliklər insan təfəkküründə tam imitasiya olunaraq qavranıldıqdan sonra həmin anlayışlar ayrı-ayrı konkret sözlərlə ifadə olunmuşdur. Azərbaycan dilində enantiosemiyanın ilkin mənbəyi eyni köklü antonimlərdə müşahidə edilir, sonrakı vaxtlarda onun ənənələri ayrı-ayrı söz və ifadələrdə əks olunmuşdur. Azərbaycan dilində daxili antonimliyin təzahürünü *su bağlamaq* (su açmaq), *su almaq* (qazanın üstünə su almaq – suyu əlavə etmək); *yükü aşırmaq* (yükləmək – aşırıb yıxmaq), *bitkini becərmək* (yetişdirmək – zay etmək), *lampanı yandırmaq* (yandırmaq – xarab etmək) kimi ifadə vasitələrində müşahidə etmək olur.

Üçüncü fəslin üçüncü yarımfəsli "Antonimlərdə alınmalar" adlanır. Bu yarımfəsil də eyni zamanda, "Ərəb və fars mənşəli antonimlər" və "Rus və Avropa mənşəli antonimlər"ə bölünür. Sinonim alınmalar kimi, antonim alınmalar da əksliklər çoxluğunun daha geniş, daha əhatəli ifadəsi ilə əlaqədar dillərarası inteqrasiyanın baş verməsi sayəsində alınıb işlədilir. Azərbaycan dilinin ərəb, fars və Avropa dilləri ilə baş vermiş inteqrasiyası nəticəsində aşağıdakı kimi antonimlər alınıb işlədilir: *ərəbmənşəli olanlar: əvvəl-axır, alim-cahil, batin-zahir, cəfa-səfa, daxili-xarici, fayda-zərər, qalib-məğlub,, sual-cavab, idxal-ixrac, sülh-müharibə və s.; farsmənşəli olanlar: zəmin-asiman* (yer-göy), *dost-düşmən, saz-nasaz, mərd-namərd, dürüst-nadürüst, yar-əğyar, viran-abad* və s. Ərəb və farsmənşəli antonimlər Azərbaycan dili sözləri ilə də əks cütlük yarada bilir: *saf* (ə)- *çürük* (A); *kasıb* (ə)-*varlı* (A); *işıq* (A)- *zülmət* (ə), *sevinc* (A)- *kədər* (ə); *təmiz* (A)- *murdar* (f); *təzə* (A)- *köhnə* (f), *doğma* (A)- *yad* (f); *ucuz* (A)- *baha* (f) və s. Azərbaycan dilində, həmçinin Avropa dillərinə məxsus antonim sözlərin işlədilməsinə təsadüf edilir: *analiz-sintez* (yun.), *dinamik- statik* (yun.); *obyekt-subyekt* (lat.), *aktiv-passiv* (lat.); *real* (lat.)- *fantastik* (yun.), *nihilist* (lat.) - *kosmopolit* (yun.); *start* (ing.) - *final* (lat.) və s.

Azərbaycan dilində də, əlbbətə ki, əksliklərin dərki ilə əlaqədar müvafiq sözlər işlətmək imkanları məhdud deyildir. Lakin başqa dillərdən daxil olan elementlər *birincisi*, vaxtilə dil əlaqələrinin güclənməsi sayəsində ərəb-fars dillərindən alınıb mənimsənilən, *ikincisi* isə Avropa dilləri ilə elmi və mədəni inteqrasiyanın nəticəsində işlənən terminoloji xarakterli vahidlərdir. Hər iki halda alınan sözlər ana dilinin leksik-semantik potensialının zənginləşməsinə xidmət edir.

Dissertasiya işinin "Nəticə" hissəsində əldə olunan elmi qənaətlər aşağıdakı kimi ümumiləşdirilmişdir:

1. Leksik-semantik söz qrupları leksik tərkibinə və semantik mühitinə görə ümumi bir paradiqma çərçivəsində qruplaşır. Omonimlər bir söz modelində fərqli mənalar bildirməsi ilə, sinonimlər ayrı-ayrı söz modeli tərkibində yaxın mənaların bildirilməsi ilə, antonimlər eyniköklü və ya müxtəlifköklü olmaqla əks və zidd məna ifadəsi üzrə vahid paradiqmaya daxil olur.

2. Leksik-semantik söz qruplarını təşkil edən paradiqmadaxili elementlərin hər birinin mənbəyi və təməli genealoji, inkişafı və təkmilləşməsi tipoloji xarakterlidir.

3. Omonimlərin yaranması mərhələsində informasiya intensivliyi söz modelinin formalaşması prosesini üstələdiyi üçün mövcud informasiyalar bir söz qəlibinə sığışdırılmış və bununla da sinkretik köklər yaranmışdır. İlkin omonimlər həm də derivativ və qrammatik funksiyanı yerinə yetirmişdir. Derivativ funksiya omonimlərin bir söz modelində iki müxtəlif mənanın sığışdırılması ilə, qrammatik funksiya isə onların ad və feil nitq hissələrinə aid fərləndirici əlamət, malik olması üzrə müəyyən edilir.

4. İlkin mərhələdə formalaşan omonimlərdə nitq hissələrinə görə fərqləndiricilik əlaməti tonallıqdan ibarət olmuşdur. Tonallığa görə omonimlər əşya və hərəkət anlayışı ilə bağlı ad nitq hissələrinə və feillərə aid məna bildirmişdir.

5. Omonimlərin inkişafında, formalaşmasında və təkamülündə ikinci mərhələ onların məcazlaşma yolu ilə artmasından ibarətdir. İnsan təfəkküründün inkişaf səviyyəsi artdıqca söz emalının baş verməsi də artmağa başlamışdır. Məcazi omonimlər tonal

omonimlərdən sonrakı mərhələnin məhsulu olsa da, onların formalaşmasında monosillabik quruluş əsas yer tutmuşdur.

6. Leksik-semantik söz qruplarının bir tərkib hissəsi olan sinonimlərin formalaşması mücərrəd təfəkkürün elə bir mərhələsini təkil edir ki, bu dövrdə təbiətdə və insanı əhatə edən mühitdəki çoxluqlar arasında mövcud olan nisbiliklərin dərk edilməsi prosesi başlanmışdır. Əşya və hadisələr arasındakı nisbiliklərin insan təfəkküründə imitasiya olunaraq dərk edilməsi sayəsində quruluşca fərqli olan, lakin mənaca nisbi yaxınlıq bildirən sinonim sözlərin törəməsi baş vermişdir.

7. Sinonimlərin aid olduğu dilin potensial imkanlarına uyğun özünəməxsus ifadə vasitələri formalaşmışdır. Azərbaycan dilinin leksik-semantik imkanları zəngin olduğu üçün bu dildə çox böyük sinonim sözlər potensialı yaranmışdır. Bu da dildə istər məntiqi, istərsə də emosional ifadə üslubunda zənginlik yaradılmasına, eyni zamanda, onlardan obrazlaşdırıcılıq vasitəsi kimi istifadə olunmasına zəmin yaratmışdır.

8. Şəkilçisizləşmə dövründə Azərbaycan dilinin affiksal imkanlarının güclənməsi və zənginləşməsi sözyaratma imkanlarında böyük irəliləyişlər baş verməsinə səbəb olmuşdur. Dilin söz ehtiyatının güclənməsi prosesində sinonimlərin təkamülü də mühüm bir mərhələ təşkil etmişdir. Sinonimlərin təkamülü üç əsas istiqamət üzrə baş vermişdi. Birinci istiqamət eyniköklü sinonimlərin formalaşmasından ibarətdir. Bu istiqamət üzrə düzələn sinonimlərin tərkibində ayrı-ayrı şəkilçilər işlənir: *gör-görkəm-görünüş*; ikinci istiqamət üzrə yaxınköklü sözlərdən müvafiq sinonimlər düzəlir. Belə sinonimlərin formalaşmasında eyni şəkilçilərin işlədilməsi müşahidə edilir: *yağışlı-yağmurlu, səsli-küylü*; üçüncü istiqamət üzrə müxtəlifköklü sinonimlərdən eyni şəkilçilər vasitəsilə nisbi yaxınlıq bildirən yeni derivatlar düzəlir: *ağız-kəsər, ağızlı-kəsərli*.

9. Azərbaycan dilinin leksik-semantik söz qruplarının bir tərkib hissəsini də antonimlər təşkil edir. Bu söz qrupunun formalaşmasında da genealoji və tipoloji amillərin mühüm rolu vardır. Antonimlərin genealoji təbiəti onların monosillabik potensialında, tipoloji səciyyəsi isə derivativ variantlarında təcəssüm olunur.

10. Antonimlərin mənbəyi monosillabik təmələ malik olsa da, dilin tipoloji inkişaf mərhələlərində onlar təfəkkür qanunlarına uyğun şəkildə təkamül prosesi keçirərək öz ənənələrini düzəltmə formalarda davam etdirmişdir. Bununla yanaşı, monosillab mərhələsindəki elementlər də öz keyfiyyət dərəcəsini itirməmişdir. Belə ki, onlar şəkilçisizlik mərhələsinin məhsulu kimi özlərində başqa dillərlə universallıq münasibətlərini saxlamaqdadır.

11. Antonimlərin də ilkin mərhələsində əkslik və ziddiyyətlər eyni obyekt, iş və hadisə daxilində dərk edilmişdir. Odur ki, bir söz tərkibi daxilində iki əks və ya zidd anlayışların ifadə olunmasını bildirən antonimlər də formalaşmışdır. Məsələn, *az* sözü müstəqil olaraq aşağılıq anlayışı bildirdiyi kimi *azı, azman* tipli derivativ formalarda böyüklük anlayışı da bildirir. Yaxud *al* tərkibi *alçaq, alçaq* sözlərində aşağılıq mənası bildirdiyi halda, *alp, alın* sözlərində yuxarılıq mənasında anlaşılır.

12. Genetik təbiətli əsli və ya monosillabik antonimlər dilin şəkilçiləşmə prosesində öz ənənələrini müvafiq derivativ tərkiblərdə davam etdirmişdir. Azərbaycan dilində öz intensivliyi ilə səciyyələnən sonşəkilçilik yeni antonimlərin formalaşması prosesinə güclü təsir göstərmişdir. Bunun sayəsində həm eyniköklü(q*orxulu-qorxusuz, dadlı-dadsız*), həm də müxtəlifköklü(*azlıq-çoxluq, aclıq-toxluq*) antonimlər düzəlmişdir.

Dissertasiyanın ümumi məzmunu ilə əlaqədar aşağıdakı məqalə və tezislər çap olunmuşdur:

1. Azərbaycan dilində əsli monasillabik sinonimlər // – Naxçıvan: "Naxçıvan" Universiteti. Elmi Əsərlər, – 2020. № 1(16), – s.131-136.

2. Tonal homonyms in the Azerbaijani language // – Vienna: The European Journal of Humanities and Social Sciences, – 2020. № 1, – p. 153-157.

3. Derivative synonyms in Azerbaijani // – Philadelphia, USA: Theoretical and Applied Science, – 2021. № 01(93), – p. 209-212.

4. Azərbaycan dilində omonim variantlar // – Gəncə: Gəncə Dövlət Universiteti. Elmi Xəbərlər, – 2021. №1, – s. 258- 263.

5. Azərbaycan dilində yaxınköklü və müxtəlifköklü sinonimlər // – Bakı: Filologiya məsələləri, – 2021. №8, – s. 185- 193.

6. Azərbaycan dilində məcazi omonimlər // – Naxçıvan: "Naxçıvan" Universiteti. Elmi Əsərlər, – 2021. № 2 (21), – s.109-114.

7. Azərbaycan dilində sinonimlərin formalaşması və təkamülü // – Gəncə: Gəncə Dövlət Universiteti. Elmi Xəbərlər, – 2021. №2, – s.331-336.

8. Azərbaycan dilində eyniköklü (daxili) antonimlər və onların təkamülü // – Bakı: Bakı Slavyan Universiteti. Elmi əsərlər. Dil və ədəbiyyat seriyası, – 2021. № 2, – s.3-9.

9. История формирования омонимов в азербайджанском языке // «Научные исследования в сфере гуманитарных наук: открытия XXI века». Материалы X Международной научно-практической конференции, – Пятигорск: – 19-20 декабря, – 2019, – с. 104-107.

10. Пары односложных омонимов в азербайджанском языке // «Высшая школа: научные исследования». Межвузовский научный конгресс, – Москва: – 28 Мая – 2020, – Том 2, – с. 59-64.

11. Azərbaycan dilində əsli antonimlər // Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr edilən Respublika Gənclər Konfransının proqram və materialları, – Bakı: – 07 oktyabr, – 2021, – s. 147-151.

12. Azərbaycan dilində alınma antonimlər // "Davamlı İnkişaf Strategiyası: Qlobal Trendlər, Milli Təcrübələr və Yeni Hədəflər". I Beynəlxalq elmi konfransın materialları, – Mingəçevir: – 10-11 dekabr, – 2021, – c. 1, – s.329 - 331.

13. Azərbaycan ədəbi dilində omonimlərin oxşar köklülüyü // – Gəncə: Gəncə Dövlət Universiteti. Elmi Xəbərlər, – 2023. № 3, – s.142-147.

14. Azərbaycan dilində genetik antonimlər // -Bakı: Beynəlxalq elmi-nəzəri jurnal. Dil və ədəbiyyat seriyası, -2024. № 1 (124),- s.48-51.


15. Azərbaycan ədəbi dilində müxtəlif anlayışlı sinonimlər // – Bakı: Filologiya məsələləri, – 2024. № 2, – s. 24- 33.

16. Azərbaycan dilində müxtəlifköklü antonimlərin semantik xüsusiyyətləri // – Bakı: Filologiya məsələləri, – 2026. № 1, – s. 54-63.

17. The evolution of Russian and European - origin antonyms in the Azerbaijani Language // Xalqaro Ilmıy-Amalıy Anjuman // Ozbekiston Davlat Unıversıtetı, – Toshkent: – 15 Aprel, 09-13, – 2026, – s.69-72.

18. Azərbaycan dilində yanmaq, istilik anlayışı bildirən sinonimlər // "Gağdaş Azərbaycan Dilinin Aktual Problemləri" IV Respublika elmi konfransının materialları, - Naxçıvan: -1-2 may, - 2026, - s.140-143.

19. Features of same - root derivational antonyms in the Azerbaijani Language // The İnternational Scientific Conference, Contemporary issues in Language, Education, Research, and Sustainability, - Mingachevir State University in cooperation with Dokuz Eylul University, - Mingachevir: -18-19 may, - 2026. –s.57-63.



Dissertasiyanın müdafiəsi 17 Noyabr 2026-cı il tarixində saat 13:00 - da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 9 Oktyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.06.2026

Kağız formatı: 60x84 $^{1}/_{16}$

Həcm: 37 559

Tiraj: 100